**Şərq Tərəfdaşlığı ölkələrində Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramının dair onlayn tədbir:**
**Daha yaxşı idarəetmə yolu ilə vətəndaşların həyatını yaxşılaşdırmaq**

# Avropa Birliyinin qonşuluq siyasəti və genişləndirmə danışıqları üzrə komissarı Olivér Várhelyi tərəfindən öncədən yazılmış video müraciəti



Hörmətli iştirakçılar və həmkarlar!

Biz **COVID-19 pandemiyası** nın meydana çıxması səbəbi ilə misli görünməmiş bir zamanda yaşayırıq. Və qarşımızda duran çətinliklərin öhdəsindən gəlmək üçün misli görünməmiş cavab tədbirlərinə ehtiyacımız vardır. Avropa Komissiyası iqtisadiyyatın bərpasına təkan vermək və sabahkı dünya üçün daha yaxşı həyat tərzi formalaşdırmaq məqsədilə bunları təmin etmək uğrunda əzmlə çalışır.

Bu böhranın lap başlanğıcından Avropa İttifaqı pandemiyaya qarşı mübarizədə beynəlxalq tərəfdaşlarla, o cümlədən Şərq Tərəfdaşlığı ölkələri ilə həmrəylik və əməkdaşlıq ruhu nümayiş etdirdi. Və bu yönümdə səylərimiz davam edir, çünki bərpaya yalnız birlikdə nail ola bilərik.

Bu həftə **Aİ-Avropa Şurası "Yaxşı İdarəçilik naminə Tərəfdaşlığı"**nın təntənəsini qeyd edirik. Bu tərəfdaşlığın ərsəyə gətirdiyi iş, dünyada insan haqları və qanunun aliliyi ilə yanaşı demokratiyanın təşviqi və müdafiəsi səylərinin mühüm bir hissəsidir. Bu, həmçinin bərpa səyləri baxımından vacibdir: demokratiya olmadan nə uzunmüddətli inkişaf və iqtisadi rifah, nə də sülh və sabitlik mövcud ola bilər. Prezident fon der Leyen bu nöqteyi-nəzəri 2020-ci il üzrə İttifaqın Vəziyyəti barədə son müraciətində vurğulamışdır.

**Şərq Tərəfdaşlığı** siyasətimizə gəldikdə, Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq, tərəfdaş ölkələrimizdə demokratik təsisatların və yaxşı idarəçiliyin gücləndirilməsi üçün prioritet olan sahələrdə nəticələrin əldə edilməsində əsas rol oynadı. Bu ilin əvvəlində Aİ

gələcək, 2020-ci ildən sonrakı dövr üçün Şərq Tərəfdaşlığı siyasəti üzrə beş məqsəd irəli sürmüşdür. Biz orada Aİ-nin ortaq problemlərin öhdəsindən gəlmək və bugünün - sabahın çətinlikləri baxımından onların **dayanıqlığı**nı gücləndirmək üçün tərəfdaş ölkələrlə birlikdə necə çalışacağını yığcam şəkildə ifadə etmişik. Digər məsələlər ilə birgə **tərəfdaşlığın əsaslarına yenilənmiş öhdəlik** yanaşmasına çağırırıq.

Dayanıqlı və demokratik idarəçilik və təsisatlar, qanunun aliliyi, uğurlu anti-korrupsiya siyasətləri, iqtisadi və mütəşəkkil cinayətkarlıqla mübarizə, insan hüquqlarına hörmət və təhlükəsizlik: bunlar güclü və dayanıqlı dövlətlərin və cəmiyyətlərin dayaq sütunudur. Bunlar, həmçinin **birbaşa xarici investisiyalar cəlb edəcək səmərəli iş mühitinin**, **eləcə də dayanıqlı iqtisadi inkişafın** təmin edilməsi üçün ilkin şərtlərdir.

Siyasət üzrə qarşıya qoyulmuş beş məqsəd əsasında, qarşılaşdığımız çətinliklərə cavab verəcək və bütün vətəndaşlar üçün nəzərəçarpan, müsbət nəticələr gətirəcək **hədəflər** üzərində işləyirik. Bu hədəflər gələn ilin martında keçiriləcək Şərq Tərəfdaşlığı Sammitində qəbul edilməlidir.

Əminəm ki, Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq bəzi yeni sahələr də daxil olmaqla, növbəti müsbət nəticələr əldə etməyimizə yardımçı olacaqdır!

Yeni **rəqəmsal vasitələr**in sürətli inkişafı cəmiyyətlərimizə və iqtisadiyyatımıza hədsiz potensialla yanaşı yeni çətinliklər və təhdidlər də gətirir. Onların müdafiəsində dayanan əsas hüquqlar və normalar kibərməkanda da tətbiq olunmalıdır. Aİ cinayət mühakiməsi və hüquq-mühafizə sisteminin səmərəli cavab reaksiyası üçün əsas olan Avropa Şurasının **Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyası**nı tam şəkildə həyata keçirmək məqsədilə Şərq Tərəfdaşlarımıza dəstək vermək öhdəliyinə sadiqdir. Bu, vətəndaşlarımızı bu cür təhdidlərdən qorumaq üçün lazımdır.

Avropa Şurası ilə uzunmüddətli əməkdaşlığımız Şərq Tərəfdaşlığı ölkələrində demokratiya ilə əlaqəli məsələlərdə bu və digər ortaq məqsədlərə çatmağımıza kömək edəcəkdir. İyul ayında Aİ növbəti iki il üçün **Avropa Şurası ilə əməkdaşlıq üzrə prioritetləri** qəbul etdi. Bunlar, həmçinin bu tərəfdaşlıq üçün prioritet olan sahələri əhatə edir.

Dəstəklədiyimiz fəaliyyətlər arasında yeni "**operativ cavab mexanizmi**" də vardır ki, onun vasitəsilə konstitusiya məsələləri və seçki qanunvericiliyi ilə bağlı Venesiya Komissiyasının rəylərinin təmin olunmasını maliyyələşdiririk. Bu günə qədər Ermənistan, Gürcüstan, Moldova və Ukraynadan alınmış 12 müraciət yerinə yetirilib. Bu rəylər çox zaman çətin siyasi məsələlərin həllinə kömək etmişdir.

Xanımlar və cənablar, gəlin növbəti 3 günü ümumi nailiyyətlərimizi qeyd etmək üçün istifadə edək. Üstəlik, bu müzakirələr nəticəsində meydana çıxacaq təklif və fikirləri Şərq Tərəfdaşlığı üzrə **2020-ci ildən sonrakı dövr üçün məqsədlər** üzərində işləyərkən nəzərə almağa hazıram.

Hamınıza uğurlu, tərəfdaş ölkələrimizdə daha dayanıqlı cəmiyyətlərin necə qurulacağına dair fikir mübadiləsi ilə dolu bir tədbir diləyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.